**Vergi və rüsumların internet vasitəsi ilə ödənilməsi**

Məlum olduğu kimi, 2012-ci ilin aprel ayından «Vergi və rüsumların internet vasitəsi ilə ödənilməsi» xidməti istifadəyə verilmiş və sınaqdan uğurla çıxmışdır. Mövzu ilə bağlı suallarımıza Vergi ödəyicilərinə xidmət idarəsinin rəis müavini Elçin Məmmədov cavab verir.

*əvvəli ötən sayımızda*

**- Elektron ödənişlə bağlı ödəyicilərin məlumatlarının təhlükəsizliyi nəzərə alınırmı?**
- Nəzərə almaq zəruridir ki, elektron ödənişlər zamanı diqqət yetirilən məsələlər sırasında informasiya təhlükəsizliyi çox mühüm yer tutur. Bu baxımdan, Vergilər Nazirliyi onlayn ödəniş sisteminin istifadəçilərinin məlumatlarının qorunması üçün müasir standartların tələblərinə tam cavab verən yüksək səviyyəli təhlükəsizlik sisteminə malikdir və məlumat mübadiləsinin yüksək təhlükəsizlik səviyyəsini təmin etmək məqsədilə mütəmadi olaraq tədbirlər həyata keçirməkdədir. Beləliklə, həm vergi ödəyiciləri, həm də vergi orqanları elektron ödəmələrin böyük faydasını görə bilərlər.

**- Ödənişlərin elektron qaydada aparılmasının hansı üstünlükləri var?**
- Üstünlükləri aşağıda göstərilən şəkildə ümumiləşdirmək olar:
· Rahatlıq - vergi ödəyiciləri banka və ya digər ödəniş məntəqəsinə getmədən istənilən yerdən və istənilən vaxt vergiləri ödəyə bilər və ödəmənin gələcəkdə həyata keçirilməsi ilə bağlı göstəriş verə bilərlər.
· Etibarlı və təhlükəsiz ödəmə - vergi ödəyicisinin çoxlu sayda pul vəsaitlərini banka daşımağa ehtiyacı qalmır və nəticədə gözlənilməz risklərdən sığortalanmış olur. Eyni zamanda, vergi ödəyicisi ödənişin müvafiq xəzinədarlıq hesabatına köçürülməsini onlayn şəkildə izləyə bilər.
· Müştərilərin məmnunluq səviyyəsini xeyli yüksəldir - onlayn ödəmə vergi ödəyicisinin vaxtına qənaət edir və artıq xərclərinin qarşısını alır.
· Vergilərin yığılmasını sürətləndirir.
· Ödənişin həyata keçirilməsi barədə dərhal bildiriş əldə etmə imkanı verir.
· Bank xidmət haqqının aşağı olması.
**- Bu üstünlüklər xərclərin və vaxt itkisinin azaldılmasına necə təsir göstərir?**
- İnternet bank əməliyyatlarından istifadə edən vergi ödəyicisi banka gedib-gəlmək xərclərindən və növbə gözləməyə vaxt sərf etməkdən azad olur. Digər tərəfdən, vergi orqanı ilə banklar arasında elektron sənəd mübadiləsinin mövcudluğu nəticəsində vergilər ödənildiyi an onların vergi ödəyicilərinin şəxsi hesab vərəqəsində əks olunmasına imkan yaranır ki, bu da vergi orqanları tərəfindən sərf edilən vaxta və insan resurslarına qənaət etməyə imkan verir. İnternet bank əməliyyatları sisteminin mövcudluğu internet bank hesabları olan vergi ödəyicilərinə ödəniş aparmağa şərait yaratdığına görə, nəticədə həmin vergi ödəyicilərinin inzibati xərcləri minimuma endirilir.
**- Elektron ödənişin tətbiqinin hansı nəticələri olub?**
- Vergilər Nazirliyi tərəfindən 2006-cı ildə tətbiq edilmiş Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin imkanları əsasında 2008-ci ilin əvvəlindən bəri Azərbaycanda ilk dəfə olaraq əlavə dəyər vergisi üzrə əməliyyatları həyata keçirmək üçün xüsusi hesabdan - ƏDV-nin depozit hesabından istifadə edilməyə başlandı. «ƏDV-nin depozit hesabı» altsistemi ƏDV üzrə yayınmaların qarşısının alınması və bu sahəyə avtomatlaşdırılmış nəzarətin həyata keçirilməsi məqsədilə yaradılmışdır. Sistem vasitəsilə vergi ödəyicisinə verilmiş elektron vergi hesab-fakturası üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi işlərinin yerinə yetirilməsi təmin olunur.

ƏDV depozit hesabının və elektron vergi hesab-fakturalarının tətbiqi vergi orqanlarına əvəzləşdirilmiş ƏDV məbləğlərinə proqram təminatı vasitəsilə avtomatik nəzarət etməyə, saxta vergi hesab-fakturalarının tətbiqinin və ƏDV fırıldaqçılığının qarşısının alınmasına, alınmış və satılmış mallar haqqında mərkəzi məlumat bazasının yaradılmasına, ƏDV depozit hesabı üzrə

aparılan ödənişlərə nəzarət etməyə və ƏDV bəyannamələrinin kameral yoxlanılmasının keyfiyyətini yüksəltməyə imkan vermişdir.

**- «Vergi və rüsumların internet vasitəsi ilə ödənilməsi»ni ödəyicilər necə qarşılayıblar?**

- 2012-ci ilin aprel ayından tətbiq edilən «Vergi və rüsumların internet vasitəsi ilə ödənilməsi» artıq vergi ödəyiciləri tərəfindən intensiv istifadə edilməkdədir: bu xidmətin fəaliyyətinin ilk 3 ayında 146 vergi ödəyicisi tərəfindən 10159 manat 98 qəpik məbləğində, 17 iyul 2012-ci il tarixinə isə 499 vergi ödəyicisi tərəfindən 68660 manat 16 qəpik məbləğində vergi və rüsum onlayn qaydada ödənilmişdir. Şübhə etmirik ki, yaxın gələcəkdə bu rəqəmlər daha da artacaqdır. Hazırda Vergilər Nazirliyi tərəfindən bu istiqamətdə vergi ödəyicilərinin məlumatlandırılması üçün müvafiq tədbirlər həyata keçirilməkdədir.

Elektron ödənişin tətbiqi vergi inzibatçılığının təkmilləşdirilməsinə və çevik nəzarət sisteminin yaradılmasına da öz müsbət təsirini göstərir. Bu xidmətin tətbiqi vergi ödəyiciləri üçün əlverişli olmaqla yanaşı, vergidən yayınma hallarının azalmasını və vergi daxilolmalarının artmasını təmin edəcəkdir.